# Cami ət-təvarixin Oğuznaməsi



**Elşən Mirişli**

*Gəncə şəhəri, tarixçi*

**XII Yazı**

***Oradan yola düşdülər.Bu uzun yol qısaldı.İki aydan sonra bir gün uzaqdan üç ağac göründü.Antlıq soruşdu:"Bu üç ağacdan hansına yaxınlaşaq? Qoru-Təkin cavab verdi: "Mən ortancıl oğul olduğum üçün ortadakı ağaca".Elə bu arada üç dağ qoçu (keçisi) göründü.Antlıq atını sürüb düz əjdahanın yanına gəldi.Qoru-Təkin tərəfə baxanda gördü ki,o,bulağın (çeşməsinin) başında yatıb.Əjdaha düz onun sinəsi üstünə yeriyirdi.Sarı Kulbaş bundan qorxub qılıncını çıkdi,əjdahanı öldürmək istədi.Əjdaha dedi: "Nə edirsən? O padşahdır: günahsız ola-ola onu bu acınacaqlı günə salıblar.Ona bir pislik etməyəsən deyə səni öldürərəm".Əjdaha dedi: "Narahat olma, o,günahsız və təmizdir".Dili ilə Qoru-Təkinin hər iki gözünü yaladı və o dəqiqə gözləri açıldı.Oradan sağ salamat geri qayıtdılar.Evinə qayıdıb arvad-uşağını gördüyü vaxt,düşmənin gəldiyini və Bugra xanı əhatə etdiyini xəbər verdilər.Tez düşmənin üstünə yeridilər və onu darmadağın etdilər.***

Qoru-Təkin atasını görüb başına gələnləri ona söylədi.Buğra xan cavabında dedi: "Bu qadını mənim üçün istədiyin gündən bilirdim ki,bir gün fitnə fəsad salacaqdır.Amma sən mənim sözlərimə qulaq asmadın.İndi isə bu qadının cəzasını necə istəyirsən,elə də ver".

Qoru xan beş dayça gətirməyi əmr etdi.Qadını bir atın quyruğuna bağladılar.Sağ qolunu başqa bir atın quyruğuna,sol qolunu və ayaqlarını da beləliklə, o biri atlara bağladılar.Atları birdən qamçıladılar və beləcə bədəni parça-parça oldu.Bu haqda Firdovsi belə demişdi:"İlxıdan bir dayça gətirməyi əmr etdi.Onu iplə,qayışla boynundan keçirib atın belinə daş kimi bağladılar.Bu dayça kimi bərk qaçan bir heyvan görünməmişdi.Bu kinli hökmdar onu meydana çəkdi.Meydana bir neçə süvari göndərdi.Boynuna qayışdan kəmənd keçirdilər ki,dayça onu daim çəkə bilsin.Bir az sonra onu yerə atıb sürükləyəcəkdi.Bu mənzərə görənləri dəhşətə gətirirdi.Onu o qədər sürüklədi ki,vücudundakı dəri tamamilə soyuldu.İsti bədənindən qanlar axırdı.Canını əzab və işgəncə içində verdi.Zalımdan ədalət gözlənilirmi?".

Qoru xan dedi: "Bundan sonra kim yalan danışıb böhtan desə,axırı belə olacaq".Sonra Buğra xan oğluna dedi:Artıq heç bir söz-söhbət və dedi-qodu olmasın deyə taxta çıx,padşahlıq sənin haqqındır.Qoru xan Karı Talasda taxta oturdu və yetmiş beş il padşahlıq etdi (Əbü-l Qaziyə görə Korı Təkin 40 il padşahlıq etmişdir).Onun ölümündən sonra qohumu Oyunaq Küləngdə yeddi il padşahlıq etdi.Ondan sonra oğlu Arslan xan Küləngdə taxta çıxdı.Onun qırx hacibi( hacib-xidmətçi,qapıçı, kamerger- sarayda ən yüksək vəzifələrdən biri) Suvar ölkəsindən aldığı Suvar adlı qulu var idi.O,çox hünərli,qəhrəman,qıvraq və istiqanlı idi.Padşaha çox yaxın idi.Elə yaxın idi ki,bəylərin və vəzirlərin hüzurunda,padşahın qulağına söz deyə bilərdi.Bir dəfə onun tərifi Xatunun (xanımının) qulağına çatdı və onun sərbəstliyindən və dikbaşlığından şaşırdı. Haciblər və inaklar (ən yaxşı xidmətçi məmurlar inak adlanırdı) ona qibtə edirdilər.Öz aralarında məsləhətləşib birlikdə padşaha belə dedilər: "həmin bu Suvar padşah haqda çox pis fikirdədir.Səni öldürüb zorla padşahlığı ələ keçirəcək və sənin arvadını alacaq.Bütün bunları öyrənib gizlədə bilmədik".

Kara Arslan xan Suvara iş tapşırıb bir yerə göndərdi və dedi: "Geri dönəndə onu parça-parça eləmək üçün sizə verirəm".

Onlar getdilər,padşah da hərəmxanaya getdi.Böyük qadını olan (Mal?) Bal Xatun ilə Cevar (Gövhər) Xatun ona canlıqla şərab içməyi arzulamaq üçün yanına gəldilər.Padşahı qəmgin və üzüntülü görüb səbəbini bilmək istədilər.Arslan xan Suvar haqqında öyrəndiklərini danışdı və dedi: "Qəlbim buna görə sıxılır.Sabah buraya qayıdanda buna görə sorğuya tutulacaq.Əgər deyilənlər doğru olsa,onu öldürəcəyəm".Qadınlar da belə dedilər: "Sözün düzü,biz də hərdən ona həsəd aparır və onu xoşlamırdıq,çünki,gizli-açıq hər sözü cəsarətlə sənə deyirdi.Lakin o,qəhrəman və çevik bir adamdır.Hər cür işin və qulluğun öhdəsindən gözəl gəlirdi.Bütün adi vəzifələri və padşahlıq işlərini,yemək,içmək,at,qatır,dəvə kimi heyvanların yemlənməsini,pal-paltar,geyim işlərini çox gözəl görmüş,təşkil etmişdir.Ola bilər ki,onlar qibtə və kindən bu sözləri deyiblər.Əvvəlcə dərindən yoxlama və araşdırılma aparılmalıdır.Beləliklə,tərəflərin mövqeləri və bicliyi boşuna buraxılmasın.Yazıq günahsız ikən qibtə edənlərin yalanı ilə ölümə getməsin.Sonrakı peşmançılıq fayda verməz,sakit olmaq üçün diqqətlə davranmaq lazımdır".

***Kara Arslan bütün gecəni bu iş haqqında düşündü.Sabahı günəş doğanda baş hacibnə xəbər verib dedi: "Mən Küyüklü Hisara ova getmək istəyirəm.Amma qadınlarının bir qədər nasaz olmaları buna yol vermədi.Siz özünüz ova gedin".Onlar da padşahın əmri ilə getdilər.***

Ertəsi gün Suvar gəldi.Kara Arslan elə etdi,Suvar onu görməsin.Bir gündən sonra ona xələt göndərib əmr etdi ki, Ananda (Ananda da Sırdəryanın aşağı axarında yerləşirdi) və Yeni Kənd vilayətlərindən üç illik vergini gətirsin.Ona mənşur və mal-qara verdi və bir çox başqa hədiyyələrlə yola saldı.Sonrakı günlərdə öz hacibləinə və Suvara qarşı hiylə düşünürdü.Özünü ölmüş deyib bir tabuta uzandı,hacibləinə və Suvara xəbər göndərdi ki,bəs Qara Arslan ölmüşdür!Haciblər bu xəbəri eşidib tez geri qayıtdılar və tələsik bir-biri ilə məsləhətləşməyə başladılar: "O bizimlə heç yaxşı davranmırdı,xoş üz göstərib etibar etməzdi,üstəlik,bizə olan inamı qırıb Suvara üstünlük verərdi.Onun yası bizim üçün bir gəlinin toyu kimidir".Xanın qadınları ilə heç maraqlanmadılar,yalnız bir dəfə könülsüz yasa gəldilər.Arslan xanın xəzinələrini ələ keçirib öz aralarında bölüşdürdülər.Onun təbil və kosunu,bir də bayrağını ələ keçirdilər.İkinci gün Suvar gəlib çıxdı.Böyük bir yas məclisi qurdu.Qadınların yanına gedib ürəkdən ağladı,yandı.Onun ağı kimi dediyi şeirlər hamını ağlatdı. Bu şeirlərdə belə deyirdi: "Ey padşah,çox heyiflər olsun ki,sən bəylərini razı salmadın,indi onlar sənin ölümündən sonra evinə və uşaqlarına kömək etmədilər,təbil və bayrağını evlərinə apardılar.İndi sən öləndən sonra mənim yaşamağımın nə faydası var?Səndən sonra düşmənlərinin sevinc dünyasını görməmək üçün özünmü öldürəcəyəm".

Onun bu ağlamağını,sızlamağını eşitcək Qara Arslan birdən əlləri ilə vurub tabutu qırdı və ayağa qalxdı.Qadınlar bundan qorxub dedilər: "Bir ölü necə oldu ki,canlandı!" və qaçdılar.Suvar qaçmadı və uca səslə dedi: "Sənə sədaqətim və bağlılığım bəlli oldu,məni də özünlə o biri dünyaya aparmaq üçün gəldin".Qara Arslan onu bərk-bərk qucaqlayıb öpdü.Onun qəlbi sevinc və razılıqla dolu idi: "Uca Tanrı mənə yenidən dirilik bağışladı və həyata qaytardı,sən heç qəm yemə".Suvar çaşqınlıqla dedi: "Sən insanı belə necə imtahana çəkirsən? Padşah dedi: "İndi söhbət vaxtı deyil.Oğlanlarım İlarslan və Mahmud bütün əsgər və xidmətçilərlə atlanıb getsinlər və qırx hacibi tutub gətirsinlər".Onları tutub padşahın hüzuruna gətirdilər.Bilmədən tutduqları işdən utanıb peşiman olmuş və gözlərini yerə dikmişdilər.Padşah qəzəblə qışqırdı: "Niyə gözləriniz yerə dikilmişdir?" Onlar qorxudan çaşıb cavab verdilər ki: "Günahkar olduğumuzdan".

Arslan xan əmr etdi: "Sizin Suvar haqqında dedikləriniz özünüzə qarşı çevrildi.Ondan mənə dediklərinizin hamısı öz murdar canınızda varmış.Bizim təbil və zurnamızı evinizə aparmısınız.Mən tabutdan çıxmaqda bir qədər gecikseydim,gəlib yetişən Suvar sizin üzünüzdən özünü öldürəcəkdi.İndi sizin etdiklərinizin cəzası ölümdür,yox olmaqdır".Onların öldürülməsini Suvara həvalə etdi.Suvar dedi: "Padşahın icazəsi ilə onları elə öldürüm ki,bütün düşmənlərə ibrət dərsi olsun".Onları yol ayrıcına gətirməyi əmr etdi.İbrət olsun deyə öldürdülər,yəni gözlərini çıxardıb,qulaqlarını kəsdilər.Əl-ayaqlarını bədənlərindən ayırıb yol boyunca düzdülər.Ölkənin müxtəlif yerlərindən bu matəmə gələn əhali və bəylər yol boyunca bunları görüb sarsıldılar.Arslan xanın hüzuruna gəlib gördüklərindən təəccübləndiklərini bildirdilər.Padşah bunu belə aydınlaşdırdı: "Onlar pis niyyətli adamlardı.Yalan yaymağa və nifaq salmağa çalışırdılar. Bu da əməllərinin cəzasıdır".

***Sonra Suvara dedi: "Sən özündən sonra gözəl ad qoydun.Hər yana yay ki,yer üzü onların murdar canlarından qurtardı.Bir də yay ki,hər kim yalan danışıb,böhtan atıb,pislik etmək fikrinə düşərsə və padşaha əl qaldırmış olarsa, onu belə cəza gözləyir".***

***Suvara Subaşı (imarət i-ləşker) rütbəsi verdi,naib və hacibliyi də ona tapşırdı.Yetmiş il dövlət başında durdu,xoşbəxtlik və böyüklüklə padşahlıq etdi.***

Öz oğlu hələlik kiçik olduğundan əmisi oğlu Osman xan Küləngdə taxta çıxdı.On beş il padşahlıq etdi.Ölümündən sonra Əsli xan taxta çıxdı.Yaşlı və dünya görmüş bir adam idi və dünyanı ayların,illərin arşını ilə ölçmüşdü.Üç ildən sonra oğlu Şaban xan taxta çıxdı.Şaban xan iyirmi iki il padşahlıq etdi.Onun ölümündən sonra yerini oğlu Buran (Turan) tutdu.On səkkiz il padşahlıq etdi.Buran xanın ölümündən sonra onun yerinə oğlu Əli xan keçdi.O iyirmi il müddətində Mənd və Yenikənddə padşah oldu.Amudərya (Amudərya çayını Oğuz türkləri Ceyhun adlandırırdı) çayının bu tərəfində oturardu.Amudəryanın o biri tərəfində,Ceyhun çayının sahilində çoxlu qəbilələr yaşayırdı.Onların böyükləri bir neçə bəy idi.Əli xan oğlu Qılınc Arslana qırx minə yaxın atlı çıxara bilən o yerləri idarə etməyi tapşırdı.Yüz səksən yaşlı Biqdiz Qardıçını oğlunun naibi və veziri təyin etdi ki, oğlu işləri doğruluqla və Qardıçının ədalətindən çıxmamaqla yerinə yetirsin.Oğlunun belinə bir qılınc bağlayıb dedi: "Qoy sənin adın Qılınc Arslan olsun!.

***Onlar Xorasana gəldilər,bir neçə il keçəndən sonra Qılınc Arslan həddi-buluğa çatmış bir gənc oldu.Hər gün günah işlər tutur və pis əməllər görürdü.Gecələr bəy qızlarının evinə girir və onları zorlayırdı.Bəylər artıq buna dözə bilmirdilər. Bu səbəbdən ona "Zalım Şah Məlik" adı verdilər.Hamılıqla Atabəy Qardıçının yanına gəlib,ondan çoxlu şikayət etdilər. Qardıçı ona çox öyüd verdisə də,faydası olmadı.Nəhayət bəylər birləşib onu tutmaq qərarına gəldilər.Lakin Şah Məlik çayı keçib qaçdı və Biqdiz Qardıçı da onun ardınca getdi.***

## Oğuzların dini inamları

X əsrin əvvəllərində oğuzlar Tenqriçilik dini inamlarını davam etdirirdilər.İslam aləmində Türklərin Allahı tanıdıqları və ona Tanrı dedikləri məlum idi.Türklərin yaradıcını Uluğ-Bayat adlandırdıqları da müsəlman alimləri tərəfindən bilinirdi.Oğuzların hakimləri olduğu məlumdur.Oğuzlar bu mənəvi şəxsiyyətlərə böyük hörmət bəsləyirdilər.Hətta onların oğuzların davaları və qaanları üzərində hökm sahibi olduqları bildirilir ki,bu ifadədən mənəvi şəxsiyyətlərin el üzərində nə qədər əhəmiyyətli təsir və nüfuzu olduqları ortaya çıxır.Elə Oğuznamədə Bayat nəslindən Dede Kerekçi Qorqud Qara Xoca oğlu da bu hakimlərdən biri idi.Təbiblik edən,gələcəkdən xəbərlər verən,hər hansı bir təşəbbüsün uğurlu olub-olmayacağını bildirən,dini mərasimləri və dövlət divanını idarə edən bu mənəvi şəxsiyyətlərə oğuzların qam, dədə,yoxsa başqa bir ad (məsələn ata) verdikləri bilinir.Ata sözü onlar haqda hörmət ifadə edən söz idi.

Ölü basdırmaq adətlərinə gəlincə islamın qəbulundan öncə oğuzlar ölülərini göytürklər kimi,paltarlı,silahlı və yanlarında digər şəxsi əşyaları ilə birlikdə dəfn edirdilər.Ölü ev şəklində qazılmış məzarda oturdulur,əlinə içki dolu (kımız) bir çamçax verilir,qabağına da içki dolu bir qab qoyulurdu.Məzar bir otaq biçimində qazılır,tavanı düzəldilir,sonra onun üstünə palçıqdan qübbəyəbənzər bir hissə əlavə edilirdi.Bu oğuz məzarları islamın qəbulundan öncəki inamları əks etdirirdi.

***Dəfndən sonra ölünün atları kəsilərək yeyilirdi ki, bu da bütün türk qövmlərində görünən yuğ aşı və ya ölü aşı (ehsan) adəti idi.Ölən adam sağlığında bəzi kimsələri öldürmüşdüsə,onların rəsmləri taxta üzərində oyulub məzara qoyulurdu.İnama görə,ölünün öldürdüyü adam və ya adamlar cənnətdə onun xidmətçiləri olacaqlar.Bu isə göründüyü kimi göytürklərin balbal adətindən başqa bir şey deyildir.Oğuzlar eyni zamanda əsas türk ellərində olduğu kimi,yuğ aşında yeyilən atların başlarını,ayaqlarını və dərilərini məzarın üstündəki payalardan asırdılar.Onların inamına görə,ölü cənnətə ətləri yiyilən,dəriləri payalardan asılan bu atlarla gedəcəkdir.Belə olmadığı təqdirdə,ölü cənnət səfərini piyada başa vurmaq məcburiyyətində qalacaqdır.***



(ardı var)